**01.06.2023: xəbər**

## Khazar University's Staff Members at International Staff Week at Tuscia University in Italy

On May 22-26, 2023, head of the Department of Petroleum Engineering Dr. Elshan Abdullayev, assistant to the rector and lecturer of the Computer Engineering Department Humay Huseynova and coordinator of the International Relations Office Fatima Valiyeva participated in the International Working Week held at the University of Tuscia in Tuscia, Italy within the framework of the Erasmus+ staff exchange program (KA107).

On the first day of the program, the rector of the university, Prof. Stefano Ubertin, and the vice-rector for International Relations, Prof. Simone Severini, met with the participants and made presentation on the objectives of the International Staff Week, as well as about the university.

Representatives from different countries took part in the event. Fatima Valiyeva, coordinator of the International Relations Office, made a presentation about Khazar University and its faculties, scholarships offered to students, international opportunities, cooperation.

In the following days of the program, Prof. Giuseppe Calabro delivered a presentation on innovative and inclusive teaching. Prof. Sonia Melchiorre reported on diversity and inclusion in administrative communication. Project coordinator Dr. Isabella Querci held a workshop in the direction of innovative practice - research.

A meeting of university representatives participating in the week with students currently studying at the University of Tuscia with the Erasmus+ Student Exchange Program was organized. Employees of Khazar University met Seymur Mirzaliyev, a 3rd-year student of Oil and Gas Engineering at the School of Science and Engineering, and were interested in his impressions.

A visit of the program participants to Lake Bolsena was organized, they were invited to an evening banquet on the campus of the University.

At the end of the program, participants were presented with certificates.

**Xəzər Universitetinin əməkdaşları İtaliyanın Tuscia Universitetində Beynəlxalq İşçi Həftəsində**

2023-cü il mayın 22-26-da Neft mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayev, rektorun assistenti və Kompüter mühəndisliyi departamentinin müəllimi Humay Hüseynova və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Erasmus+ İşçi heyətinin mübadiləsi proqramı (KA107) çərçivəsində İtaliyanın Tuscia şəhərində yerləşən Tuscia Universitetində (Università degli Studi della Tuscia) keçirilmiş Beynəlxalq İşçi Həftəsində iştirak etmişlər.

Proqramın ilk günü universitetin rektoru Prof. Stefano Ubertin və Beynəlxalq əlaqələr üzrə prorektor Prof. Simone Severini iştirakçılar ilə görüşdülər və Beynəlxalq İşçi Həftəsinin məqsədləri, həmçinin universitet haqqında təqdimat nümayiş olundu.

Tədbirdə müxtəlif ölkələrdən nümayəndələr iştirak edirdilər. Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Xəzər Universiteti və universitetin fakültələri, tələbələrə təklif etdiyi təqaüdlər, beynəlxalq imkanlar, əməkdaşlıqlar haqqında təqdimatla çıxış etdi.

Proqramın növbəti günlərində Prof. Giuseppe Calabro innovativ və inklüziv tədris haqqında təqdimat nümayiş etdirdi. Prof. Sonia Melchiorre administrativ kommunikasiyada müxtəliflik və inklüzivlik haqqında məlumat verdi. Layihə koordinatoru Dr.İsabella Querci tərəfindən innovativ təcrübə-tədqiqat istiqamətində vörkşop keçirildi.

Həftədə iştirak edən universitet nümayəndələrinin Tuscia Universitetində Erasmus+ Tələbə Mübadilə Proqramı ilə hal-hazırda təhsil alan tələbələrlə görüşü təşkil olundu. Xəzər Universitetinin əməkdaşları universitetin Təbiət elmləri və mühəndislik fakültəsinin Neft-qaz mühəndisliyi ixtisasının 3-cü kurs tələbəsi Seymur Mirzəliyevlə görüşərək, təəssüratları ilə maraqlandılar.

Proqram iştirakçılarının Bolsena gölünə səfəri təşkil edildi, universitetin kampusunda axşam ziyafətinə dəvət olundular.

Proqramın sonunda iştirakçılara sertifikat təqdim edildi.






Sorgente: HDBaseT
Segnale Assente






UNIVERSITÀ
DEGLI STUDI DELLA
TUSCIA


UNIVERSITÀ
DEGLI STUDI DELLA
TUSCIA

